HEYDƏR ƏLİYEV ADINA
MÜASİR TƏHSİL KOMPLEKSİ

MTK

2001



# MTK Xəbər bülleteni II cild, №1 Gələcək burada başlayır

## Bülletenin əsas xəbərləri 04.10.2024

1. Məktəb direktorunun mesajı: yeni tədris ili, yeni başlanğıclar, Nelson Urreqo
2. Məktəbəqədər bölmə: Məktəbəqədər bölmədə ilk dərs günü, Ədilə Əliyeva
3. İbtidai təhsil bölməsi: Yeni dərs iliniz mübarək, Zülfiyyə Rəsulova
4. Orta məktəb bölməsi: 2024-2025-ci tədris ilinin ilk günü, Atabəy Quliyev
5. Bat memarlıq irsi şəhərində yay proqramı, Natavan Qocayeva
6. Dünyanın yüksək reytinqli universitetləri MTK-da, Aysel Əliyeva
7. Məktəblilərdə sağlam həyat ritminin formalaşdırılması, Leyla Baxışova
8. Profil: Rəqs müəllimimiz Turan Abdullayevanı yaxından tanıyaq, Nelson Urreqo
9. Səhvlər (şeir), Emmanuel Aqbason 10i sinif şagirdi
10. Linkin Park yeni musiqiçi ilə yenidən bir araya gəlir (bloq yazı), 9i2 sinif şagirdi Duru Asılıskender
11. Kələm kəpənəyinin heyrətamiz dünyası, Fatimə Qəribli 9i sinif şagirdi
12. Lois Lourinin "Seçilmiş" romanı (resenziya), İrem Baysinop, 9i1 sinif şagirdi

## Məktəb direktorunun mesajı Yeni tədris ili, yeni başlanğıclar...

Mən əziz MTK ictimaiyyətini yeni tədris ilinin başlanması münasibətilə səmimi qəlbdən təbrik edir, olduqca zövqlü, lakin eyni zamanda olduqca məsuliyyətli işimizdə uğurlar arzulayıram.

Şagirdlərimiz beynəlxalq və yerli imtahanlarda qənaətbəxş nəticələr əldə etdi ki, bu da bizi daha yüksək hədəflərə can atmağa sövq edir. Missiyamızın da açıq şəkildə ifadə etdiyi kimi, biz “Azərbaycan kontekstində beynəlxalq mükəmməllik mərkəziyik...”, buna görə də müvafiq məzmunun öyrənilməsini təkmilləşdirmək, ömür boyu davam edən bacarıqları və ünsiyyət bacarıqlarımızı inkişaf etdirmək istiqamətində gördüyümüz işlər planlaşdırma və tədris praktikasında daha aydın şəkildə görünəcəkdir. Akademik ingilis dilinin inkişafı akademik Azərbaycan dilinin inkişafı qədər önəmli olub, həm beynəlxalq, həm də milli kurikulum bölmələri üçün mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq Məktəblər Şurasının (TES) akkreditasiyasına gedən yol məktəbdaxili sistem və strukturları təkmilləşdirməyi, dinamik və qloballaşan dünyanı daha yaxşı başa düşmək və ona uyğunlaşmaq üçün düşüncə tərzimizi dəyişdirməyi tələb edir. MTK-nın 21-ci əsr təhsil çağırışlarına ardıcıl şəkildə yanaşması üçün Uşaqların Müdafiəsi və Mühafizəsi siyasətinin ciddi şəkildə təşviqi, şagird məsləhətçi proqramının həyata keçirilməsi, Şagird şurasının fəal iştirakı, əməkdaşlarımızda davamlı peşəkar inkişafı dəstəkləmək üçün TES ilə əməkdaşlıq və innovativ təcrübələrin araşdırılması kimi tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Məktəb rəhbərliyə və pedaqoji yanaşmamıza böyük etimad göstərdiyiniz üçün Sizə təşəkkür edirik.

Hörmətlə,

Nelson Urreqo, PhD

Məktəb direktoru

## Məktəbəqədər bölmə
## Ədilə Əliyeva, Məktəbəqədər bölmə üzrə rəhbər

### 1. Məktəbəqədər bölmədə ilk dərs günü

Yeni tədris ilinə canlı və şən əhval-ruhiyyə ilə başladıq! Balaca şagirdlərimiz gələn kimi onları şən mahnı və əyləncəli rəqslərlə qarşıladıq. Bizim gülərüz kollektivimiz hər bir uşağı səmimi təbəssümlə qarşılayaraq, onlara özlərini evdəki kimi hiss etmələrinə dəstək oldular. Şənliyə əlavə olaraq, günümüzə təbəssüm və sevinc gətirən istedadlı klounları da dəvət etdik. Rəngarəng çıxışlar uşaqları valeh etdi, əyləncəli və cəlbedici ab-hava isə hər kəsin təbəssümünə səbəb oldu. Valideynlər övladlarının məktəbəqədər təhsil müəssisəsinə qayıdarkən necə xoşbəxt və həvəsli olduqlarını gördükləri zaman sevinclərini bizlərlə bölüşdülər. Yeni dərs ilinin başlanğıcını bizlərlə birlikdə qeyd edən ailələrin sevincinə şahid olmaq ürəkaçan idi. Bütün məktəbəqədər yaşlı uşaqlarımızla birlikdə bu gözəl öyrənmə, inkişaf və araşdırma səyahətinə çıxmaqdan məmnunuq! Möhtəşəm 2024-2025-ci tədris ilində hər kəsə uğurlar arzu edirik!




### 2. Məktəbəhazırlıq (Transition) qrupları üçün Assambleya: Sinif qaydaları

Sentyabrın 13-ü cümə günü məktəbəhazırlıq qrupunun uşaqları sinif qaydalarına həsr olunmuş maraqlı toplantıda iştirak etdilər və bu tədbiri sizlərlə bölüşməkdən məmnunuq. Tədbir zamanı uşaqlar sinifdə davranışın vacibliyini, təlimatlara əməl etməyi, müsbət təlim mühitinin yaradılmasında qaydaların mühüm rol oynadığı öyrəndilər.

Toplantı bizim balacalarımız üçün bu əsas anlayışları başa düşmək, müzakirə etmək və onların sinif təcrübələri üçün təməl yaratmağa kömək edən gözəl bir fürsət oldu.



**3. Müsbət Davranışın Təşviqi**

Sentyabrın 20-də məktəbəhazırlıq qrupunun şagirdləri yaxşı və pis davranışı dərk etməyə yönəlmiş sessiyada iştirak etdilər. Uşaqlar bu anlayışları əyləncəli və mənalı şəkildə araşdırmaq üçün nəzərdə tutulmuş müxtəlif interaktiv fəaliyyətlərdə iştirak etdilər. Rollu oyunlar və qrup müzakirələri vasitəsilə şagirdlər xeyirxahlığın, hörmətin və düzgün seçim etməyin vacibliyini öyrəndilər. Fəaliyyətlər onları öz hərəkətləri və başqalarına necə təsir etdikləri barədə tənqidi düşünməyə təşviq etdi. Bu müsbət davranışlar şagirdlərimiz üçün sosial bacarıqlarını inkişaf etdirmək və müvafiq davranış haqqında anlayışlarını artırmaq üçün gözəl fürsət idi. Biz onların bu mühüm mövzuda həvəsli iştirakı ilə fəxr edirik!



**4. Açıq havada öyrənmə**

Keçən həftə məktəbəhazırlıq qrup uşaqlarının öyrənmə və araşdırma bacarıqlarını inkişaf etdirən zaman əyləncəli  vaxt keçirmələri üçün oyun meydançasında maraqlı fəaliyyət təşkil etdik. Uşaqlar təbiətin möcüzələrini kəşf edərkən müxtəlif yarış xarakterli oyunlarda iştirak etdilər. Bu, həm maraq, həm də komanda işini təşviq edən əyləncəli və dəyərli fəaliyyətlərlə dolu şən təcrübə idi. Gələcəkdə açıq havada daha çox oyunlar keçirərək uşaqların motorik bacarıqlarını inkişaf etdirəcəyik.

# İbtidai təhsil bölməsi
# Zülfiyyə Rəsulova, ibtidai təhsil üzrə rəhbər

**1. Yeni dərs iliniz mübarək!**

Bilik günü ilk zəng, ilk həyəcandır! Kompleksimizdə 2024-2025-ci tədris ilinin başlanması münasibətilə "Bilik Günü" tədbiri keçirildi. Məktəb həyatına qədəm qoyan 1-ci sinif şagirdləri maraqlı rəqslər, müxtəlif çıxışlar nümayiş etdirdilər. 5-ci sinif şagirdləri 1-ci sinif şagirdlərini sevinclə qarşıladılar və dərs ilinin əvvəlində onlara bir sıra məsləhətlər verdilər. Ömrün ən unudulmaz zamanına çevrilən ilk zəngin çalınması mərasimi hər bir şagirdin məktəb həyatını simvolizə edən dəyişməz ənənədir. Bu yolda peşəkar MTK kollektivi şagirdlərə hər addımda dəstək olmaq üçün hazırdır.

Biz birlikdə gözəl xatirələr və nailiyyətlərlə dolu möhtəşəm bir il keçirəcəyik!




**2. İbtidai bölmə-Assambleya: Güclü olmaq üçün birlikdə başlayaq!**

İlk assambleya şagirdlərimiz üçün ilhamverici bir başlanğıc oldu. Assambleyanın əsas məqsədi şagirdləri cəsarətli olmağa, çətinlikləri qəbul etməyə və özlərinə inanmağa təşviq etmək idi. Öyrənmə ilə əyləncəni birləşdirərək şagirdlərin hekayələr paylaşdığı, müzakirə olunan mövzularla bağlı öz fikirlərini sərbəst şəkildə ifadə etdiyi bir mühit yaratdı. Şagirdlərə səhv etməyin öyrənmə prosesinin ayrılmaz bir hissəsi olduğu xatırladıldı. I-V sinif şagirdləri assambleyada müzakirələrdə fəal şəkildə iştirak edərək müxtəlif fəaliyyətləri yerinə yetirdilər. Dəstəkləyici və əyləncəli mühit onları özlərini ifadə etmək üçün həvəsləndirdi. Qeyd etmək istəyirik ki, şagirdlər xüsusilə valideynləri ilə birgə keçiriləcək gələcək assambleyaları səbirsizliklə gözləyirlər.

**3. Oriyentasiya günü: 1-ci sinif şagirdlərinə səmimi salam!**

Məktəb həyatına hazırlaşan 1-ci siniflərimiz maraqlı Oriyentasiya Günü keçirdilər. Məktəbin ibtidai bölməsinə daxil olan yeni şagirdlərimizi müəllimlərimiz  xoş arzularla qarşıladılar və onlara məktəb səyahətində hər zaman dəstək olmaq üçün hazır olduqlarını bildirdilər. Oriyentasiya Günü şagirdlərin gündəlik rutinlərini, gözləntilərini və sinif qaydalarını anlamağa imkan verdiyi üçün onların təhsilinin vacib bir hissəsidir.



**4. Valideynlərlə görüş: Uğur əldə etmək üçün tərəfdaşlıqların qurulması**

Kompleksimiz valideynləri təhsil prosesinə cəlb etməyə, həmçinin müəllim, valideyn və məktəb arasında ardıcıl ünsiyyət qurmağa çalışır. Yeni tədris ilində MTK şagird uğurunun vacibliyi və sıx tərəfdaşlığın qurulması üçün valideyn iclasları keçirdi. Valideynlər övladlarının sinif rəhbəri, fənn müəllimləri ilə görüşməyə, həmçinin tədris ili ərzində öyrənmə gözləntiləri və kurikulum haqqında ətraflı məlumat almağa dəvət edildi.



**5. Müəllimlərin təlim sessiyaları**

Dərslər sentyabrın 2-də başlasa da, müəllimlərimiz yeni tədris ilinin uğurlu keçməsi üçün hazırlıqlara iki həftə tez başladılar. Bu müddət ərzində onlar kurrikulum planını və mövzularını müzakirə etdilər,

həmçinin sinif otaqlarını, displeyləri bəzədilər. Təhsil proqramları və texnologiyaları haqqında öyrənmək üçün fənn komandaları ilə əməkdaşlıq etdilər. Müəllimlərimiz həmçinin dərs və fəaliyyətlərin diferensiallaşdırılması, şagirdlərin müdafiəsi və təhlükəsizliyi kimi mühüm mövzular üzrə peşəkar inkişaf təlimləri keçirdilər. Bu təlimlər müəllimlərimizə daha böyük uğurlara nail olmaq, şagirdlər üçün daha faydalı imkanlar təmin etmək, onların fəallığını və qiymətləndirilməsini təkmilləşdirməyin yolları haqqında düşünmək üçün yaradıcı ideyalar verdi.




**5-ci sinif şagirdlərinin II Fəxri Xiyabana ziyarəti**

Şagirdlərdə Vətənə məhəbbət hissinin daha da möhkəmləndirilməsi və həqiqi vətənpərvərlik məzmununun onlara düzgün aşılanması məhz ibtidai sinifdən başlayır. Bu məqsədlə sentyabrın 24-də məktəbimizin 5-ci sinif şagirdləri II Fəxri Xiyabanı ziyarət etdilər. Müəllim və şagirdlər xalqımızın azadlığı uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etdilər. Bu ziyarət şagirdlərin milli qürur anlayışına dərin təsir göstərməklə yanaşı onlarda vətənə sədaqət, fədakarlıq haqqında dərin düşünmək imkanı verəcək.



**İbtidai bölməmizə töhfə verən yeni şagirdlərimizlə tanış olun!**

Bu il  4 və 5-ci sinif şagirdlərimizin məktəb bülleteninə töhfə vermək üçün əsas komandamıza qoşulduqlarını elan etməkdə məmnuniyyət hissi duyuruq! Onların iştirakı hər bir buraxılışa yeni baxışlar və yaradıcılıq qatacaq.

Bu buraxılışda üç istedadlı şagirdin töhfələrini qürurla təqdim edirik. Gələcək buraxılışlarda daha çox gənc yazarlarımızın iştirakı olacaq və bu, İbtidai bölməni təmsil edən şagird komandasının davamlı döngüsü vasitəsilə təmin ediləcəkdir.

İbtidai bölməmizdə olan bülleten komandamızla tanış olun və il ərzində onların möhtəşəm töhfələrini izləyin!



***Sülh Günü***

Sentyabr ayı hər il bütün dünyada beynəlxalq "Sülh Günü" kimi qeyd olunur. Biz hər il bu vaxtı bütün dünya xalqları olaraq birləşib sülh və əmin-amanlıq haqqında düşünürük. Kompleksimiz də bu ənənədən yan keçmədi və biz şagirdlər "Sülh Gününü" müxtəlif formalarda qeyd etdik, çünki bizim məktəbimizin şagirdləri sülh və dostluq şəraitində təhsil alırlar. Belə ki, "Sülh Günü"nü vurğulamaq üçün ibtidai sinif şagirdləri olaraq sülh bayraqları düzəltdik və onları "Sülh bağça"sından asdıq.

*5-ci sinif şagirdləri: Əsma Abbaslı, Solomia Pasenko, Validə Hacıyeva*

## Orta təhsil bölməsi
## Atabəy Quliyev, orta təhsil bölməsinin rəhbəri

**2024-2025-ci tədris ilinin ilk günü**

2024-2025-ci tədris ilinin ilk dərs günü olduqca yaddaqalan və enerji dolu idi, təhsil, inkişaf və fürsətlərin olduğu yeni bir səyahətə başlamağa hazır görünürdü.

Şagirdlərin yaxşı imtahan nəticələrindən tutmuş uğurlu layihələrinə qədər parlaq müvəffəqiyyətlərini qeyd etdiyimiz keçən ilə nəzər salırıq. Universitet təhsilinə qədəm qoyan məzunlarımızı səmimi qəlbdən təbrik etdik və onlara təhsillərinin növbəti mərhələsində uğurlar arzuladıq.

Bu xüsusi gün yeni 6-cı sinif şagirdlərimizin məktəbin orta təhsil pilləsinə keçmələri ilə bağlı həyəcan və maraqlarını ifadə etmələrinə və bu mühüm addımda onlara dəstək olunmasına həsr olunmuşdu. Eyni zamanda, məktəbimizdə təhsilə yeni nəfəs və enerji gətirən yeni müəllimlərimizi də təqdim etdik.

Birlik və əməkdaşlığın ən vacib məqamlar olduğunu hər daim vurğuladıq. Biz hamımız yəni, şagirdlər, müəllimlər, valideynlər həm akademik, həm də fərdi inkişaf üçün zəmin yaradan bir mühit qurmaq üçün bir yerdəyik. Qarşıda yeni layihələr olduğu üçün bizi gözləyən həyəcanverici imkanlar üçün səbirsizlənirik.


S
T
E
MTK
BOSON




HEYDƏR ƏLİYEV
adına
Müasir Təhsil Kompleksi


MODERN EDUCATIONAL COMPLEX
to SCHOOL
hello








THE MODERN EDUCATIONAL COMPLEX
NAMED IN HONOUR OF HEYDAR ALIYEV
BACK TO SCHOO


OUR ACHIEVEMENTS




THE MODERN EDUCATIONAL COMPLEX
NAMED IN HONOUR OF HEYDAR ALIYEV
BACK to SCHOOL



**Orta təhsil bölməsinin keçirdiyi assambleyalardan yaddaqalan məqamlar**

Bu assambleyalar şagirdlərimizə bu tədris ilində işlərinin təməlini qurmaq üçün dəyərli fikirlər və düşüncə tərzi təqdim etmişdir. Biz məktəb qaydalarının nəzərdən keçirilməsi ilə başladıq. Bu qaydalar təhlükəsiz, qarşılıqlı hörmətin olduğu bir mühitin qorunmasında mühüm əhəmiyyət kəsb edir və məhsuldarlığa kömək edir. Bu qaydalar bütün şagirdlərin mehriban bir məktəb icması yaratmaq yolundakı müsbət töhfələrinə kömək edir.

Eyni zamanda, məktəb siyasətləri müzakirə olundu və Azərbaycanın əfsanəvi bəstəkarı Üzeyir Hacıbəyovun şərəfinə həsr olunmuş Milli Musiqi Günü keçirildi. Onun dahiliyinə hörmət əlaməti olaraq, şagirdlər və işçi heyətimiz bəstəkarın Azərbaycanın mədəniyyət və musiqi mənzərəsini formalaşdıran, zamana sığmayan şah əsərlərini dinləmək imkanı əldə etdilər. Bu, həyatın elə bir anı idi ki, hər kəs onun əsərlərinin gözəlliyini, əhəmiyyətini paylaşmaq və ehtiram hissi göstərmək, habelə onun bizim xalqın bədii irsinə nə qədər uyğun olduğunu vurğulamaq imkanı əldə etdi.

Biz 2022-ci ilin sentyabr ayında tarixə yazılan İkinci Qarabağ müharibəsi sərhəd toqquşmaları və 2023-cü ilin sentyabr ayında baş vermiş anti-terror əməliyyatlarında şəhid olanların xatirəsini yad etdik. Bu anma mərasimləri ölkəmizin təhlükəsizliyi və suverenliyi uğrunda canını fəda edənlərin xatirəsinə dərin bir hörmət hissini ifadə edirdi. Bu assambleyalarda şəhid olanların qəhrəmanlıq və şücaətinə dair düşüncələrimizi bölüşdük. Bununla da, şagirdlərimizdə dərin vətənpərvərlik və hörmət hisslərini formalaşdırdıq.

Sentyabr ayında keçirilən assambleyalar bizə məsuliyyət, yaradıcılıq və milli qüruru özündə birləşdirən məktəb mədəniyyətinin yaradılmasına olan öhdəliyimizi xatırlatdı; bu, şagirdlərin akademik inkişafını, məsuliyyətli və hörmətli vətəndaşlar kimi yetişməsini dəstəkləyir.




menia launched a large-scale
nts of the Azerbaijani army
ars and artillery devices of
vity of the Armenian army and
he command of the Azerbaijani
long the entire front.




2001




27 September






**II Fəxri xiyabana ziyarət**

Bu ay şagirdlərimiz və müəllimlərimiz Azərbaycanın təhlükəsizliyi və suverenliyi uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini yad etmək üçün II Fəxri Xiyabanı ziyarət etdilər. Bu ziyarət Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizə aparanların göstərdiyi qəhrəmanlıq və fədakarlığı yaddaşlara yazan güclü bir simvol oldu.

Ziyarət zamanı şagirdlər canlarını fəda edən şəhidlərimizin xatirəsini ehtiramla yad etdilər. Həmçinin, onlar xiyaban boyunca hər bir qəbir daşının və abidənin qəhrəmanlardan geriyə qalan bir xatirə olduğuna şahidlik etdilər. Sonra şagirdlər məzarlara gül qoydular və şəhidlərimizi bir dəqiqəlik sükutla yad etdilər.













**Beynəlxalq Yaşıl STEAM Azərbaycan festivalına hazırlıqlar**

Oktyabrın 24-25-də Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalı keçiriləcək. Festival STEAM Azərbaycan layihəsi tərəfindən ölkədə STEAM əsaslı təhsilin tətbiqini genişləndirmək, 21-ci əsr bacarıqlarını inkişaf etdirmək və şagirdlər arasında yaradıcı istedadları üzə çıxarmaq məqsədilə təşkil edilir. Həmçinin, bu festival BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasına, COP29-a dəstək verir və 2024-cü ili "Yaşıl Dünya naminə Həmrəylik İli" olaraq elan edir. Bu festival STEAM yanaşmasını tətbiq etməklə sudan istifadənin, alternativ enerji və sağlam ekoloji mühitin qorunması üçün innovativ həll yollarına təşviq edir.

Müasir Təhsil Kompleksi adından belə nüfuzlu bir tədbirdə şagirdlərimizin iştirakını elan etmək bizim üçün böyük bir məmnuniyyətdir. Ən rəqabətli kateqoriyalardan biri olan H2 Grand Prix PRO üzrə iştirakçılar: Əli Əliyev, Adnan Cabbarov, Həşim Sadıqov və Davud Kazımov. Bundan əlavə, Həsən Əliyev və Hüseyn Abdullayev ROBOT-Lego müsabiqəsində robototexnika bacarıqlarını nümayiş etdirəcəklər.

Hörmətlə,

Ələsgər Əsədov

STEAM üzrə koordinator




BOSON
BOSON
MTK
MTK




**Qarşıdan gələn imtahanlar və onların şagirdlərin inkişafındakı rolu**

Bildiyiniz kimi, tədris ili ərzində şagirdlərimizin təlim nəticələrini, akademik biliklərinin inkişaf dinamikasını izləmək üçün Heydər Əliyev adına Müasir Təhsil Kompleksində ardıcıl olaraq müxtəlif imtahanlar keçirilir. Fənn müəllimi tərəfindən proqram üzrə KSQ (Kiçik Summativ Qiymətləndirmə), müdiriyyət tərəfindən BSQ (Böyük Summativ Qiymətləndirmə), yeni tədris ilindən etibarən MQT (Məktəbdaxili Qiymətləndirmə Testləri) təşkil olunur. Nəticələr yoxlanılır, mütəmadi olaraq sizlərlə müzakirə olunur. Bu imtahanların ardıcıl keçirilməsi sizlərdə aşağıdakı bacarıqların formalaşmasına kömək edir.

· Bilik səviyyəsini yoxlamaq: şagirdlərin öyrəndikləri mövzularda nə qədər biliyə sahib olduğunu qiymətləndirir, onların mövzunu nə qədər mənimsədiklərini və hansı sahələrdə inkişaf etməyə ehtiyacları olduğunu müəyyən edir.

· Öyrənmə prosesini inkişaf etdirmək: imtahanlar şagirdləri müntəzəm olaraq dərs oxumağa və öyrənməyə təşviq edir. Bu, şagirdlərin biliklərini möhkəmləndirməsinə və öyrənmə bacarıqlarını inkişaf etdirməsinə kömək edir.

· Məsuliyyət hissini artırmaq: imtahanlara hazırlaşmaq şagirdlərdə məsuliyyət hissini və vaxtın düzgün idarə olunması bacarıqlarını inkişaf etdirir. Onlar təyin olunmuş bir vaxta qədər müəyyən bir məqsədə çatmalı olduqlarını anlayırlar.

· Stres və həyəcana uyğunlaşma: imtahanlar şagirdlərə stresli vəziyyətlərdə necə davranmaq və həyəcan altında qərar vermək bacarıqlarını öyrədir. Bu bacarıqlar gələcəkdə iş və şəxsi həyatda da faydalı olur.

· Uğur və özünə inam hissi: imtahanlarda uğur qazandıqca özünəinam artır və şagirdlər öz bilik və bacarıqlarına daha çox güvənirlər. Bu, onların akademik motivasiyasını yüksəldir.

İmtahanlara düzgün yanaşma şagirdlərin təkcə akademik biliklərini deyil, həm də şəxsi inkişafını dəstəkləyən mühüm bir vasitədir.

Hörmətli valideynlər, bütün bunları nəzərə alaraq, xahiş edirik ki, imtahan günlərində övladlarınızın imtahanlarda iştirakını təmin edəsiniz. Əvvəlcədən təşəkkür edirik.

**Qeyd:** İlk sınaq imtahanı 11 oktyabr 2024-cü il tarixində olacaqdır.

Hörmətlə,

Allahyarlı Sahibə

Orta təhsil pilləsində Milli Kurikulum üzrə müavin, olimpiadalar üzrə koordinator, Milli kurikulum üzrə imtahan kordinatoru

**IGCSE, AS, və A-Level Kembric imtahanlarının noyabr sessiyası**

Beynəlxalq bölmə IGCSE, AS və A-level imtahanlarının noyabr sessiyasının astanasındadır. Nəzərinizə çatdırmaq istərdik ki, bu imtahanlar cari ilin **7 oktyabr - 7 noyabr** tarixləri ərəfəsində baş tutacaqdır. Bu sessiya çox vacibdir, çünki bu müddət ərzində şagirdlərimiz təhsil aldıqları dövr ərzində hansı bilik və bacarıqlara yiyələndiklərini nümayiş etdirəcəklər.

Biz bütün şagirdlərimizə bu imtahanda iştirakları üçün özlərinə güvənmələrini və iradələrini toplamağı arzu edirik. Ümid edirik ki, çəkdiyiniz zəhmət və göstərdiyiniz səy bu akademik mərhələdə öz bəhrəsini verər.

Hörmətlə,

İlahə Mahmudova

Kembric imtahanları üzrə rəhbər

## İngiltərənin Bat memarlıq irsi şəhərində yay proqramı Natavan Qocayeva, Dil və öyrənməyə dəstək üzrə koordinator

Bu yay şagirdlərimiz Böyük Britaniyanın Bat şəhərində iki həftəlik dinamik yay proqramında iştirak etmək üçün inanılmaz bir fürsət əldə etdilər. Zövq və rahatlıq üçün inşa edilmiş bu şəhərdə proqram məzmunu inteqrasiya edilmiş dil dərsləri ilə birlikdə şagirdlərə müxtəlif maraqlı fəaliyyətlər təklif edirdi. Şagirdlər Bat Spa Universitetinin yaşıllıqlarla əhatə olunmuş kampusunda yerləşdirilmiş və gün boyu müxtəlif ekskursiyalardan həzz almışlar.

Bat, müxtəlif muzeylər və qalereyalar, ən gözəl mağazalar və restoranlarla zəngin, kompakt və qonaqpərvər bir şəhərdir. Kəşf ediləsi çox şey olduğu üçün bu məkan şagirdlərin proqramdan gözləntilərinə tam cavab verdi və onları şəhərin gözəl mənzərələri və cazibədar yerləri ilə heyran qoydu.

İnteraktiv dərslər vasitəsilə şagirdlər qlobal mövzuları araşdıraraq dil bacarıqlarını təkmilləşdirdilər. Media savadlılığı, tənqidi düşüncə, yaradıcılıq və mədəniyyətlərarası fərqindəlik mövzusuna həsr olunmuş seminarlar şagirdlərimizin universitet mühitində həm akademik, həm də sosial baxımdan inkişaf etməsinə imkan yaratdı.

Bat şəhərindən kənarda da bir sıra fəaliyyətlər təşkil olunmuşdu. Məşhur Uembili stadionunda yüksək səviyyəli Manchester United və Manchester City futbol oyununu izləmək şansı şagirdlərimizi ingilis futbolunun həyəcanına qərq etdi. Bundan əlavə, şagirdlər Oksford, Bristol və London şəhərlərinə təhsil ekskursiyalarına çıxdılar. Bu səfərlər onlara tarixi abidələri kəşf etməyə imkan yaratdı, onların akademik və dil biliklərinə əlavə töhfə verdi.

Bundan başqa, şagirdlərimiz arasında davamlı dostluqlar və mənalı əlaqələr yarandı. Birgə dərslər, sosial tədbirlər və axşam görüşləri şagirdlər arasında güclü dostluqların qurulmasına şərait yaratdı. Beləliklə, hekayə davam edir...

İndi biz İstbornun cazibədar sahil şəhərində məktəb inteqrasiya proqramını həyata keçirməyə hazırlaşırıq. Şagirdlər Willingdon Community məktəbində dərslərə qatılacaq və real Britaniya təhsil təcrübəsini yaşayacaqlar.

Gələcək proqramlarımızda daha çox şagirdi qarşılamağı, onların inkişafına dəstək olmağı səbirsizliklə gözləyirik.


MTK


MTK


THE
TOTE BAG



English literature:
French literature
I will die for honour
I will die for love
American literature:
Russian literature
I will die for freedom
I will die


REDMI NOTE 11 PRO 5G
09/08/2024 10:16


REDMI NOTE 11 PRO 5G
09/08/2024 11:34


ETIHAD
AIRWAYS

## Dünyanın yüksək reytinqli universitetləri MTK-da!
## Aysel Aliyeva, Ali təhsil üzrə məsləhətçi

Oktyabr ayının 10-da dünyanın qabaqcıl universitetlərinin təmsilçilərinin iştirakı ilə kompleksimizdə təhsil sərgisi baş tutacaqdır. Sərgidə 20-dən çox universitetin iştirakı gözlənilir. Sərgidə iştirak etməklə şagirdlərimiz universitetlərin rəsmi nümayəndələri ilə birbaşa görüşüb özlərinə uyğun proqram seçimi haqqında, eləcə də bakalavr dərəcəsi, hazırlıq proqramı, tam və ya qismən ödənişli təqaüdlər, təhsil haqqı, endirimlər, proqram üstünlükləri  haqqında geniş məlumat ala biləcəklər. Sərgi 9-12-ci sinif şagirdləri və onların valideynləri üçündür.

10 oktyabr 2024-cü il tarixində "Xaricdə təhsil sərgisi"ndə aşağıda adları qeyd edilən universitetlər rəsmi şəkildə təmsil olunacaqdır:

- University of Portsmouth,  UK
- Queen Mary University of London / The UK
- University of Glasgow / The UK
- University of Alberta / Canada
- St Andrew’s College, Cambridge Summer Camps / The UK
- Kaplan International Pathways / International
- EU Business School / Spain, Switzerland, Germany
- Middlesex University / The UK
- CBS International Business School / Germany
- Florida International University / The USA
- University of Wollongong / Australia, Dubai
- University of Cambridge Summer Research Programs / The UK
- University of Bedfordshire / The UK
- Heriot - Watt University / The UK and Dubai
- University of Worcester / The UK
- Webster University / The USA
- GEDU Global - Schiller International University / The UK
- University of Essex / The UK
- London South Bank University / The UK
- University of Leeds / The UK
- Constructor University Bremen / Germany

- Universidad Europea de Madrid / Spain
- Middlesex University / The UAE
- University of Hertfordshire / The UK
- Fenerbahce University / Turkiye
- Izmir University of Economics / Turkiye


HIGHER EDUCATION FAIR 2024
MTK
2001
Date: 10 October
Time: 09:30
Venue: MTK Sport Hall
Universities attending
St Andrew's College, Cambridge Summer Camps
Kaplan International Pathways
EU Business School
Middlesex University
CBS International Business School
University of Glasgow
Florida International University
Queen Mary University of London
University of Wollongong
University of Cambridge, Summer Research Programs
University of Bedfordshire
Heriot - Watt University
University of Worcester
Webster University
GEDU Global, Schiller International University
University of Essex
London South Bank University
University of Alberta
University of Leeds
Constructor University Bremen
Universidad Europea de Madrid
Middlesex University
University of Hertfordshire
Fenerbahce University
Izmir University of Economics
University of Portsmouth
Find Your Place

## Məktəblilərdə sağlam həyat ritminin formalaşdırılması

Leyla Baxışova, məktəbin həkim-pediatrı

Sağlamlıq təkcə xəstəliyin olmaması deyil, həm də tam fiziki, psixoloji və sosial rifahın olması, bioloji xarakteristikanın, ailə münasibətlərinin, tərbiyənin, ətraf mühit keyfiyyətinin vacib göstəricisidir.

Məktəbli dövrü uşaqların  ən intensiv böyümə və inkişaf dövrüdür. Bu dövrdə əldə etdikləri vərdişlər bütün həyatları boyu davam edir. Buna görə də sağlam həyat tərzi vərdişlərini məhz məktəb dövründə formalaşdırmaq çox önəmlidir.

Sağlam həyat tərzi dedikdə, məktəbyaşlı uşaqların yaşa uyğun balanslı qidalanması, gündəlik maye qəbulu, fiziki aktivlik, normal yuxu rejimi, şəxsi gigiyena qaydalarına əməl edilməsi, ekran məruziyyətinin minimuma endirilməsi nəzərdə tutulur.

Məktəbli şagird gün ərzində yaşa uyğun miqdara zülal,yağ,karbohidrat qəbul etməlidir. Mütləq menyuda  meyvə və tərəvəz olmalıdır. Tez hazırlanan hazır qidlardan mümkün qədər az istifadə etmək məsləhət görülür.

Normal yuxu rejimi şagirdin gün ərzində aktiv fəaliyyəti üçün vacibdir. Yuxusuzluq şagirdlərin gün boyu halsız, yorğun olmasına səbəb olur, bu da dərsləri qavrama qabiliyyətini aşağı salır. Yatmazdan ən az 2 saat öncə kompüter oyunları, qısa videolara baxmaq şagirdin yuxu ritminə mənfi təsir edir.

Səhər yuxudan oyandıqdan sonra 1 stəkan ılıq su içmək mədə-bağırsaq fəaliyyəti üçün çox faydalıdır. Səhər ac qarına şokolad və ya hər hansı şirniyyat qəbul etmək gün ərzində qidalanmana rejiminin pozulmasına, iştahanın azalmasına  səbəb ola bilər.

Son dövrlərdə şagirdlər arasında oturaq həyat tərzi piylənmə kimi ciddi xəstəliyin yaranmasına səbəb olur. Bunun qarşısın almaq üçün uşaqların günlük rejimində mütləq fiziki aktivlik olmalıdır. Gün ərizdə ən az 3 saat təmiz havada gəzinti və ya oyunlar oynamaq şagirdlərin həm fiziki, həm də mental sağlamlığı üçün vacibdir.

Hər bir valideyn övladının akademik bacarıqlarının yüksək olmasını istəyir və bunun üçün şagirdlər məktəbdən əlavə dərnəklərə də yönləndirilir. Lakin bu gün ərzində şagirdlərin normadan artıq yüklənməsinə və qavrama qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Buna görə də şagirdin sağlam həyat tərzinin və sağlam vərdişlərinin yaranması üçün günlük planlamada təhsil və asudə vaxt bərabər bölünməlidir.

Uşaqlıqdan övladlarımıza ailədə göstərilən nümunə onun gələcək həyatdakı bütün davranışlarını, özünə və sağlamlığına münasibətini, həyat tərzini müəyyən edir. Ona görə də valideynlər özləri də sağlam həyat tərzi prinsiplərinə əməl etməli, övladlarına nümunə olmalıdırlar. Ailədə sevgi, qayğı, valideynlər ilə səmimi münasibət, xoş ünsiyyət uşaqların psixi sağlamlığının əsasıdır.






MTK
Lenovo



## Profil: Rəqs müəllimimiz Turan Abdullayevanı yaxından tanıyaq. Müsahibəni götürdü: Nelson Urreqo



N.U. - Hər vaxtınız xeyir, Turan xanım, necəsiniz? Dəvətimizi qəbul etdiyinizə və MTK cəmiyyətinə sizinlə daha yaxından tanış olmaq üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.

T.A. - Sizin də hər vaxtınız xeyirli olsun. Dəvətinizə görə mən də təşəkkür edirəm.  MTK cəmiyyətində uzun müddət müəllim-xoreoqraf vəzifəsində çalışmağım mənim üçün böyük şərəfdir.

N.U. - Rəqs etmək kimi maraq cəlb edən bir məşğuliyyət tapmaq, həqiqətən də, çətindir. Bəs siz rəqs müəllimi olmağa necə qərar verdiniz?

T.A. - Ailəmizin musiqiyə, incəsənətə böyük həvəsi olduğu üçün  mən də kiçik yaşlarımdan professional rəqslə  "Bənövşə" rəqs ansamblında solist olaraq məşğul olmağa başladım. Bu səbəbdən təhsilimi də Bakı Xoreoqrafiya məktəbində başa vuraraq tanınmış müəllim-xoreoqraflardan, Azərbaycan Respublikasının xalq artistlərindən almışam. Dərs zamanı onların milli və dünya-xalq rəqslərinin incəliklərini necə məsuliyyətlə bizə təqdim etmələri məndə çox böyük maraq yaradırdı. Uşaq yaşlarından xəyallarımda özümü  müəllimlərim kimi peşəkar, sənətini sevən bir şəxs kimi görürdüm. Bu xəyallar, arzular mənə dəstək olan valideynlərim nəticəsində gerçəkləşdi. Hal-hazırda öz müəllimlik sənətim ilə qürur duyuram.

N.U. - Təşəkkür edirəm, Turan xanım. Sizcə, incəsənətin (xüsusilə rəqs dərslərinin) məktəb mühitində davamlı olaraq yer alması niyə bu qədər vacibdir?

T.A. -  Məncə, incəsənət  insanın şəxsiyyətini inkişaf etdirmək üçün çox vacibdir. Rəqs dərsləri isə uşaqların özünü ifadə etməsi, bədən dili ilə duyğularını çatdırması üçün unikal bir vasitədir. Rəqs həm də komanda işini, intizam və məsuliyyəti öyrədir. Hərəkət edərkən bədənin sərhədlərini kəşf etmək və öz potensialını görmək uşaqlar üçün çox dəyərli bir təcrübədir.

N.U.- Təşəkkür edirəm, Turan xanım. Enerjiniz və həvəsiniz hər zaman məktəb təqdimatlarında nəzərəçarpan olmuşdur. Bəs tədris təcrübənizdə ən çox hansı aspektləri bəyəndiyinizi deyə bilərsiniz?

T.A. - Mənim üçün ən vacib tərəf şagirdlərimin  səhnədə sərbəst və peşəkarcasına öz performanslarını nümayiş etdirmələridir. Onların dərs prosesində hərəkətləri mənimsəmələri və özünəinamı artmalarını görmək, həqiqətən də, ilhamvericidir. Eyni zamanda şagirdlər arasında yaranan dostluq və birlik, bir komanda kimi çalışmaq, onların gələcək həyatında önəmli rol oynaya bilər.

N.U.- Xoreoqrafiyalarınız həmişə yaradıcı və təsiredici olur. Məktəb təqdimatı üçün yaradıcı bir proses olan balanslı xoreoqrafiyanı necə qurduğunuzu izah edə bilərsinizmi? Düşünürəm ki, bu, şagirdlərin yaş qrupundan asılı olaraq dəyişir, elədirmi?

T.A.- Bəli, tamamilə doğrudur. Yaş qrupuna və ən əsas da şagirdlərin istedadına uyğun xoreoqrafiyanı uyğunlaşdırmaq vacibdir. Məktəbəqədər pillə üzrə uşaqlar üçün hərəkətlər daha sadə və əyləncəli olmalıdır ki, onlar müəllimi və dərs prosesini sevə bilsinlər. İbtidai pillə üzrə şagirdlər isə dünya xalq rəqslərinin incəlikləri ilə tanış olur və onların səhnədə daha sərbəst nümayiş etdirmələrinə şərait yaradılır. Yuxarı təhsil pilləsi üzrə şagirdlər üçün  hərəkətlər həm texniki cəhətdən daha mürəkkəb olur, həm də daha çox emosional dərinlik tələb edir.  Balans yaratmaq üçün hər iki tərəfi nəzərə almaq vacibdir: həm texnika, həm də yaradıcı ifa.





N.U. - Son məzuniyyət tədbirindəki rəqs xoreoqrafiyası yüksək qiymətləndirilmişdi. Zəriflik, sinxronluq və harmoniya, həqiqətən də, diqqətçəkici idi. Məzunlara ötürdüyünüz həvəsi açıq hiss etmək mümkün idi. Onlara vida etmək çətin oldumu?

T.A.- Bəli,həqiqətən də, vida etmək çətin olur. Çünki, bu şagirdlərlə mən məktəbəqədər pillədən yuxarı təhsil pilləsinin son məzuniyyət tədbirinədək birlikdə rəqs nömrələri hazırlayıb təqdim etmişəm. Hər məzun tədbirində şagirdlərlə performanslar hazırlayanda onlarla keçirdiyim illəri, xoş xatirələri xatırlamaq mənim üçün təsirli olur. Ancaq eyni zamanda onların yeni mərhələyə keçdiklərini bilmək və həyatlarında uğur qazanacaqlarına inanmaq mənə qürur verir.

N.U.- Bu, çox maraqlı və təsirlidir, Turan xanım. Qruplardan bəhs etmişkən, bəs günümüzün uşaqları bizim nəsil qədər rəqs etməkdən çəkinirlərmi?

rəqs etməyə

T.A.- Məncə, bəzi uşaqlar  ilk başda rəqs etməkdən çəkinə bilərlər. Amma mənim uzunmüddətli təcrübəmdə uşağı hiss edib düzgün istiqamət vermək və dəstək olmaq, onların dərs prossesində və gələcəkdə özlərini səhnədə sərbəst aparmağına imkan yaradır. Mən deyərdim ki, professional müəllim-xoreoqrafın ən əsas işi şagirdi hiss etməkdir.

N.U. - Bəs şəxsi fikrinizə görə, sizin ən sevdiyiniz musiqi növü hansıdır? Rəqs etmək üçün ən çox hansı musiqi növünü bəyənirsiniz?

T.A.-  Mənim üçün bir xoreoqraf kimi bütün musiqi növləri mükəmməldir. Buna misal Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirdə MTK-nın müəllim və tələbə heyətindən ibarət, Azərbaycanda ilk dəfə quruluşu olan xoreoqrafı olduğum “Əsrin əks-sədası” adlı  rəqsimi qeyd eymək istərdim. Rəqsdə istifadə etdiyim musiqi ritmləri və əllərin kompazisiyası vasitəsi ilə mən tamaşaçılara musiqiyə, daxili ruhuma və peşəmə olan duyğumu çatdırmaq istəmişəm.

[Echoes of the Century]

Musiqi  mənim vəziyyətimə və əhval-ruhiyyəmə bağlıdır. Mənim daxili ruhuma yaxın olan milli musiqimizdir. Buna səbəb olan MTK-nın 20 illik yubileyinə həsr olunmuş dövlət səviyyəli tədbiri üçün səhnələşdirmiş olduğum “Xarıbülbül” rəqs-kompozisiyası ərsəyə gəldi. Hal-hazırda öndə olan arzum “Xarıbülbül”  rəqs-kompozisiyasını məhz Şuşada, Cıdır Düzündə tamaşıçılara təqdim etməkdir. Bu, həm də mənim üçün böyük bir şərəf olardı.

[Khari Bulbul]

N.U.- Bir müəllim kimi bölüşmək istədiyiniz hər hansı bir lətifə varmı?

T.A. - Bəli, bölüşə bilərəm.  Məktəbəqədər və ibtidai pillə üzrə uşaqları rəqs dərsinin sonuna yaxın dairəvi düzüb şən musiqi sədaları altında hər şagirdə sərbəstlik verərək, öz performansını göstərmək şəraitini yaradıram. Bir şadirdim bu prossesdə olduqca maraqlı və cəld texnikası olan bir neçə hərəkət nümayiş etdi. Düzdür, bu, bizə gülməli gəlsə də, ancaq bu hərəkət mənim diqqətimi cəlb etdi  və onu “Beynəlxalq Uşaq Günü”nə həsr olunmuş tədbirdə xoreoqrafı olduğum “Madakaskar” rəqsinə əlavə etdim. Heç də peşman olmadım. Çünki bir xareoqraf kimi çalışmışam hər zaman yeniliklərə imza atım.

N.U.- Turan xanım, vaxt ayırdığınız üçün çox təşəkkür edirəm, həmçinin, əzmkarlığınız və dəyərli işiniz üçün sizi təbrik edirəm.

T.A.- Mən də Sizə təşəkkür edirəm. Çox sağ olun, Sizinlə bu söhbəti etmək mənim üçün də çox xoş idi. Bu məsuliyyətli iş prossesində MTK cəmiyyətinin hər bir üzvünə uğurlar arzulayıram.

## Səhvlər (şeir) Emmanuel Aqbason, 10i sinif şagirdi

Mistakes

made no matter what road we take

made even though we know what's at stake

when life seems to be more than just give and take

What is real

What is fake

Is this fate, is it fate

To ask this question I have come to hate

Because it means that I have no choice

That life has taken the Reins by force

Then what will all my efforts worth

the time I put in, the hours I worked

Is this how Life Will Go

forced to go according to the flow

will I ever defy fate

What if it's too late

What if the choice isn't mine to make

But were the decisions ever mine to take

Do i really have to resign myself to this thing called fate

These are questions I always ask myself

But the answers never come

Because this is fate we talk about, can be fought but never overcome




## Linkin Park yeni musiqiçi ilə yenidən bir araya gəlir (bloq yazı) Duru Asılıskender, 9i2 sinif şagirdi

Əfsanəvi vokalist və qrup lideri Çester Benninqtonun vəfatından sonra musiqiyə yeddi il fasilə verən Linkin Park rok qrupu, nəhayət, “From Zero” adlı yeni albomlarını elan etmişlər.

100 saatlıq geri sayımdan sonra elan edilən albom 15 noyabrda çıxacaq.

Bu, fan kütləsi üçün əhəmiyyətli bir xəbərdir, lakin bəzi fanlar yeni vokalist Emili Armstronqda Çester Benninqtonun malik olduğu vokal diapazonu və elastikliyin olmadığını iddia edirlər. O, eyni vokal keyfiyyətlərə malik olmasa da, Linkin Parkın geri dönməsi əvvəlki işləri ilə eyni səs-sədanı gətirmədi və gətirməyəcək. Çünki bu, qrup üçün sıfırdan yeni bir başlanğıcdır. Bəllidir ki, qrup üzvləri bu qərardan

məmnundurlar və Emiliyə qarşı mənfi münasibət bəsləmək Çesteri geri gətirməyəcək. Qrup açıq şəkildə keçmişdə ilişib qalmaq istəmir, çünki bu, qrup üzvləri, musiqi sənayesi və bütün dünyada musiqi sevənlər üçün çətin bir dövr olub.

Qrup Emili ilə yeni dövrlərinin başlanğıcını, yeni albomun ilk mahnısı olacaq "The Emptiness Machine" adlı sinqlını canlı performansla çıxış edərək qeyd etdi. Albomla birlikdə qrup 6 şoudan ibarət dünya turunu da elan edib.

Nur içində yat, Çester (1976-2017), o, həqiqətən də, ən yaxşı vokalistlərdən və ən xeyirxah musiqiçilərdən biri idi.

Qeyd: Mən şəxsən Emilinin yeni vokalist olmasına qarşı deyiləm. Təbii ki, o, Çesterin səviyyəsinə çatmayacaq və hətta çatsaydı belə, bu o demək deyil ki, onu kopyalayır. O, özünəməxsus üslubu və unikal səs tembri olan yeni bir vokalistdir. Həmçinin, onun "Dead Sara" adlı qrupu da olduqca yaxşıdır, mən onu çox bəyənirəm.



*1 - https://www.independent.co.uk/arts-entertainment/music/features/linkin-park-new-singer-emily-armstrong-tickets-bennington-b2616070.html*

## Kələm kəpənəyinin heyrətamiz dünyası
## Fatimə Qəribli, 9i sinif şagirdi

Mən həmişə təbiətdə rahatlıq tapmışam. Təbiət gözəldir, zərərsizdir və heyrətamizdir. Təbiətin hər bir parçasını sevsəm də, məncə, həşəratlar onun ən cazibədar və maraqlı hissəsidir. Onlar çox kiçik olmalarına baxmayaraq, ekosistemimizdə böyük rola malikdirlər. Parlaq qanadlı və unikal naxışlı kəpənəklər mənim ən sevdiyim həşərat növüdür. Buna görə də, xüsusi bir kəpənək növü olan “Kələm kəpənəkləri” haqqında yazmağa qərar verdim.

Tırtıl mərhələsində kələm qurdları kimi tanınan kələm kəpənəklərinə (Pieris rapae) dünyanın mülayim iqlim qurşaqları olan hər yerində rast gəlinir.

**Yaşayış mühiti**

Kələm kəpənəklərinə müxtəlif yaşayış mühitlərində təsadüf edilir. Onlara çəmənliklər, bataqlıqlar, meşələr, tarlalar daxil olmaqla, demək olar ki, hər cür açıq sahədə rast gəlinə bilər.

**Fiziki təsvir**

Kələm kəpənəklərinin sürfə forması olan kələm qurdlarının uzunluğu 35 mm-ə qədər ola bilir. Bu qurdlar yaşıl məxmərvari görünüşə malikdir. Yetkin kəpənəklərin qanad genişliyi 4,5 sm ilə 6,5 sm arasında dəyişir. Kələm kəpənəklərinin ucları qara rəngdə olan ağ qanadları var.

**Yaşam müddəti**

Kələm kəpənəkləri hava şəraitindən asılı olaraq 3 həftədən 6 həftəyə qədər yaşayır. Onlar ömürlərinin təxminən 3 həftəsini yetkinlik dövründə keçirirlər.

**Fəaliyyət dövrü**

Kələm kəpənəkləri gündüz aktiv olurlar. Onlar yaz mövsümündən sentyabradək uçurlar, lakin şimal bölgələrində onların aktiv fəaliyyət dövrü daha qısa, cənubda isə daha uzun olur.

**Ekosistemdə rolu**

Kələm qurdları və kələm kəpənəkləri eyni canlıların fərqli həyat mərhələləri olmalarına baxmayaraq, ətraf mühitdə çox fərqli rollara malikdirlər. Kələm qurdları acgözlü qidalanma şəkli ilə bitkiləri zədələyərək və ya onları məhv edərək ekosistemlərinə mənfi təsir göstərə bilirlər. Bunun əksinə, kələm kəpənəkləri yalnız bitkilərin nektarı ilə bəslənərək yarpaqlara zərər vurmurlar. Eyni zamanda, kələm kəpənəkləri kələm kimi məhsul bitkilərinin vacib tozlandırıcılarıdır.

**İnkişafı**

Kələm qurdu kələm kəpənəyinə çevrilməzdən əvvəl təxminən 15 gün müddətində yetkinləşir. Bu inkişaf mərhələsində sürfələr dörd dəfə dəri dəyişir və beş instar mərhələdən keçir. Qida bitkiləri üzərində və yaxud yaxın ərazilərdəki zibilliklərdə formalaşan xrizalislər pupa mərhələsinə keçid edir. Puplar 19–20 mm uzunluğunda olub, boz, yaşıl, sarı və ya qəhvəyi rəngdə ola bilərlər. Metamorfoz müddəti 11 gündən bir neçə həftəyə qədər dəyişir. Mövsümün sonu kələm qurdları puplarından çıxmazdan əvvəl orada qış yuxusuna gedə bilirlər.

**Mənbə:**

ADW (Animal Diversity Web): Pieris rapae

https://animaldiversity.org/accounts/Pieris_rapae/#B7EB81A4-B29C-11EA-80E3-005056AB59D3





## Lois Lourinin "Seçilmiş" romanı (resenziya)
## İrem Baysinop, 9i1 sinif şagirdi

Bu yaxınlarda sinfimiz Lois Lourinin məşhur "Seçilmiş" romanını oxumağa başladı. İndiyə qədər romanın yalnız ilk altı fəslini oxumuş olsaq da, bu romanın özünəməxsus süjetinin olması və əks etdirdiyi sirli ab-hava artıq diqqətimizi özünə çəkmişdi.

Romanda hadisələr Conasın (baş qəhrəmanın) yaşadığı cəmiyyətdəki mühüm hadisə ilə bağlı narahatlığını təsvir etməklə başlayır. Conasın yaşadığı cəmiyyət son dərəcə nəzarət altındadır və mütəşəkkildir; hər şey qaydasındaymış kimi görünsə də, heç kəsin problemi olmasa da, nəyinsə yanlış getdiyinə dair güclü bir hiss var. Beləliklə, romana qısa bir göz atmaqla əsas mövzunun idarə və uyğunlaşma üzərində qurulduğunu anlayırıq.

"Seçilmiş" əsərini oxumağın əyləncəli yanları olduğu kimi, faydalı tərəfləri də olduqca çoxdur. Bu kitab yaddaş, şəxsiyyət və cəmiyyət kimi dərin mövzulara toxunur ki, bu da bizim tənqidi düşüncə tərzimizi inkişaf etdirməyə kömək edir və sinifdə önəmli, lakin bir o qədər də maraqlı müzakirələrə yol açacaq. Bundan əlavə, süjeti anlamaq bizə personajın, süjetin analizi və proqnozlaşdırma kimi analitik bacarıqları təcrübə etməyə imkan verir ki, bu da yaxşı oxuyub-anlama bacarıqlarının inkişafı üçün vacib bir nüansdır. Biz oxumağa davam etmək və “Seçilmiş” əsərinin dünyasını daha dərindən kəşf etmək üçün səbirsizlənirik! Bu kitaba daha çox agah olduqca sizi də mütləq məlumatlandıracağıq.







Çəkdikləri zəhmət və fədakarlıqları üçün redaktorlarımız Xədicə Cəfərova (Kembric təkmil proqramları və ingilis dili üzrə koordinator) və Nelson Urreqoya (məktəbin direktoru), redaksiya heyətinə (bölmə rəhbərlərimiz) və bülletenə öz yazıları, tərcümə və ya korrektə işləri ilə töhfə vermiş hər bir kəsə öz minnətdarlığımızı bildiririk. Bundan əlavə, icraçı direktorumuz Aygün Mikayılovaya və Əməliyyatlar üzrə rəhbər Tural Abbasova göstərdikləri etimad və əvəzsiz dəstəyə görə təşəkkür edirik.